Şeyxülislam
Allahşükür PAŞAZADƏ
Qafqaz Müsəlmanları İdarəsinin Sədri
MDB Dinlərarası Şurasının Həmsədri

Шейх-уль-ислам
Аллахшукюр ПАША-ЗАДЕ
Председатель Управления Мусульман Кавказа
Сопредседатель Межрелигиозного Совета СНГ

شيخ الإسلام
الله شكر باشازاده
رئيس إدارة مسلمي القوقاز
الرئيس المشترك لمجلس الأديان لرابطة الدول المستقلة

Sheikh-ul-islam Allahshukur
PASHA-ZADEH
The Chairman of Caucasus Muslims' Board
The Co-chairman of Interreligious Council of CIS

Azərbaycan Respublikası, Bakı, Az1001, Mirzə Fətəli küç, 7
Republic of Azerbaijan, Baku, Az1001, Mirza Fatali str., 7

TEL: [+994 12] 594 55 49, FAX: [+994 12] 492 40 72
E-MAIL: c.muslim.b@gmail.com, URL: www.qafqazislam.com

№ *351* *02 / 10 / 2023*

**Görkəmli alim və ictimai-siyasi xadim**
**İqor Rauf oğlu AŞURBƏYLİYƏ**

**Hörmətli İqor Rauf oğlu,**

Sizi- Azərbaycan tarixində və ictimai həyatında özünəməxsus yeri olan Aşurbəylilər nəslinin tanınmış nümayəndəsini anadan olmağınızın 60 illiyi münasibəti ilə ürəkdən təbrik edir, xeyir-dualarımı yetirirəm.

Mənsub olduğunuz nəsil xalqımıza tanınmış xeyriyyəçilər, görkəmli alimlər bəxş edib. Böyük mesenat Nabat xanım Aşurbəyli öz vəsaiti hesabına Bakının mərkəzində Təzə Pir məscidi kimi unikal dini-tarixi memarlıq abidəsi inşa etdirməklə İslam aləmində bir ilkə imza atmışdır. 1915-ci ildən bəri Təzə Pir məscidində ibadət edən dindarlar Nabat xanımın xatirəsini ehtiramla yad edir, ruhuna dualar oxuyurlar.

Azərbaycan dövləti Nabat xanım Aşurbəylinin yadigarı olan Təzə Pir məscidinə diqqət və qayğı ilə yanaşaraq onu təmir-bərpa etmişdir. İnanıram ki, məscid bundan sonra da əsrlər boyu dindarlarımıza xidmət etməklə yanaşı Şərq memarlığının gözəl nümunələrindən biri kimi paytaxtımızın simasını bəzəyəcəkdir, inşaAllah!

Əziz İqor Rauf oğlu,

Siz elmi və ictimai fəaliyyətinizlə Aşurbəylilər nəslinin şərəfli yolunu bu gün də layiqincə davam etdirirsiniz. Texnika elmləri doktoru kimi ixtiralarınız, həyata keçirdiyiniz layihələr Sizi dünyanın müxtəlif ölkələrində tanıdır. Azərbaycandan kənarda yaşasanız da doğma Bakı ilə sıx bağlısınız. Mənsub olduğunuz Aşurbəylilər şəcərəsinin 280 illiyinə həsr edilən tədbirin Sizin təşəbbüsünüzlə ərsəyə gəlməsi bunu bir daha sübut edir.

60 illik yubileyiniz münasibəti ilə Sizi bir daha təbrik edir, uzun ömür, cansağlığı arzulayır, elmi və ictimai fəaliyyətinizə uğurlar diləyirəm.

Allah-Taala işlərinizə rəvac versin, inşallah!

**Hörmətlə,**

**Şeyxülislam**
**Allahşükür PAŞAZADƏ**